AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

Təsdiq edirəm
ADMİU-nun rektoru
_____ professor C.E.Mahmudova

MƏZUNLAR ASSOSİASİYASININ ƏSASNAMƏSİ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
13 noyabr 2026-cı il tarixli iclasının
03 №-li protokolu ilə təsdiq edilmişdir

Bakı – 2026

I. ÜMUMİ MÜDDƏALAR

1.1. Məzunlar Assosiasiyası (bundan sonra Assosiasiya) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra ADMİU) rəhbərliyi və məzunlarının təşəbbüsü əsasında, könüllü üzvlük prinsipi ilə fəaliyyət göstərən və məzunların qarşılıqlı əməkdaşlığının və sosial əlaqələrin inkişafına xidmət edən ictimai birlikdir.

1.2. Assosiasiyanın əsas məqsədi ADMİU məzunlarını vahid şəbəkə ətrafında birləşdirərək onların universitetlə davamlı əlaqələrinin inkişafına və peşəkar fəaliyyətlərinin dəstəklənməsinə imkan yaratmaqdır. Bu çərçivədə məzunların universitetin ictimai, yaradıcı və akademik həyatında iştirakının genişləndirilməsi, eləcə də onların peşəkar təcrübə, bilik və bacarıqlarının universitet icması ilə paylaşması üçün müxtəlif imkanların formalaşdırılması nəzərdə tutulur.

1.3. Assosiasiya ictimai əsaslarla fəaliyyət göstərən, bərabər hüquq və vəzifələrə malik üzvləri birləşdirən kollegial orqandır.

1.4. Assosiasiya öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, Elm və Təhsil Nazirliyinin Kollegiya qərarlarını, Elm və təhsil nazirinin əmr və sərəncamlarını, ADMİU-nun Nizamnaməsini, Universitet Elmi şurasının qərarlarını, rektorun əmrlərini, ADMİU-nun daxili normativ sənədlərini və bu Əsasnaməni rəhbər tutur.

1.5. Assosiasiya hüquqi şəxs statusuna malik deyil.

1.6. Assosiasiyanın Sədri və İdarə Heyətinin tərkibi Ümumi Yığıncaqda üzvlər tərəfindən səsvermə yolu ilə seçilir.

II. ASSOSİASİYANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. Assosiasiyanın məqsədi:

2.1.1. Tələbə və məzunların əmək bazarının tələblərinə uyğunlaşmasına, əldə etdikləri ixtisas üzrə peşə bacarıqlarının inkişaf etdirilməsinə və karyera imkanlarının genişləndirilməsinə dəstək göstərmək;

2.1.2. Məzunlarla universitet arasında davamlı və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, onların peşəkar təcrübə və biliklərindən təhsilalanların faydalanması üçün əlverişli mühit yaratmaq;

2.1.3. Məzunların və universitet əməkdaşlarının birgə fəaliyyətini təşviq etməklə universitetin inkişafına töhfə vermək, onun ictimai nüfuzunun möhkəmləndirilməsinə və institusional tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinə dəstək göstərmək;

2.1.4. Karyera məsləhətləri, mentorluq və digər inkişaf yönümlü proqramlar vasitəsilə xüsusilə gənc məzunların peşəkar fəaliyyətə inteqrasiyasına yardım etmək, məzunlar arasında innovativ ideyaların, yeni təşəbbüslərin təşviqinə şərait yaratmaq;

2.1.5. Dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən məzunlarla əlaqələrin qurulması, onların vahid məzun şəbəkəsi ətrafında birləşdirilməsini və qarşılıqlı əməkdaşlığın inkişafını təmin etmək;

2.1.6. Məzunlarla mütəmadi əlaqələrin və müxtəlif tədbirlərin təşkilini təmin etməklə onların peşəkar elmi-tədqiqat və yaradıcılıq fəaliyyətlərinin inkişafına şərait yaratmaq;

2.1.7. Ömürboyu təhsil prinsiplərinə uyğun olaraq məzunların peşəkar bacarıqlarının, akademik potensialının və karyera imkanlarının davamlı inkişafını təmin edən mexanizmlər formalaşdırmaq;

2.1.8. Əmək bazarının dəyişən tələblərini və gələcəkdə formalaşacaq peşəkar kompetensiyaları nəzərə almaqla universitetin inkişaf strategiyasının hazırlanması və təkmilləşdirilməsi prosesinə töhfə vermək.

2.2. Assosiasiyanın vəzifəsi:

2.2.1. Gənc məzunların peşəkar inkişafına dəstək göstərmək məqsədilə karyera dəstəyi və mentorluq proqramlarının həyata keçirilməsi, habelə məzunlar arasında innovativ təşəbbüslərin və sahibkarlıq fəaliyyətini təşviq etmək;

2.2.2. Məzunların peşəkar və ictimai fəaliyyətlərindən yararlanmaqla ADMİU-nun nüfuzunun artırılmasına, beynəlxalq səviyyədə tanınmasına, eləcə də universitetin beynəlxalq ali təhsil şəbəkələrinə inteqrasiyasına və qlobal əməkdaşlıq imkanlarının genişləndirilməsinə dəstək vermək;

2.2.3. Universitetlə cəmiyyət və müxtəlif maraqlı tərəflər arasında sosial tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə, təhsil müəssisələrinin, ictimai təşkilatların və digər tərəfdaş qurumların qarşılıqlı maraqlarının uzlaşdırılmasına, birgə əməkdaşlığın və təşəbbüslərin həyata keçirilməsinə dəstək göstərmək.

2.2.4. Məzunlarla keçirilən sorğuların və görüşlərin nəticələrini, onların rəy və təkliflərini ümumiləşdirərək təhsil prosesinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər vermək;

III. ASSOSİASİYANIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

3.1. Assosiasiyanın fəaliyyət istiqamətləri barədə universitet ictimaiyyətinin və məzunların məlumatlılığının artırılmasını həyata keçirir;

3.2. Universitet məzunları haqqında məlumatların vahid sistem üzrə toplanmasını, sistemləşdirilməsini və mütəmadi olaraq yenilənməsini, məzunların təhsil, peşə və karyera fəaliyyətləri barədə məlumatların müvafiq qaydada uçotunun aparılmasını təmin edir;

3.3. Azərbaycan Respublikasında və xarici ölkələrdə fəaliyyət göstərən ali təhsil müəssisələrinin məzun təşkilatları və birlikləri ilə əməkdaşlıq əlaqələri qurur, təcrübə və məlumat mübadiləsini həyata keçirir;

3.4. Müvafiq tədris ili üzrə universiteti bitirən məzunların Assosiasiyanın fəaliyyətinə cəlb olunmasını təmin edir;

3.5. Məzunların universitetlə əlaqələrinin möhkəmləndirilməsi, peşə bacarıqlarının inkişaf etdirilməsi və əmək bazarının nümayəndələri ilə əlaqələrin genişləndirilməsi məqsədilə müxtəlif sosial və mədəni tədbirlər təşkil edir;

3.6. Assosiasiya üzvlərinin yaradıcı ideyalarının, innovativ layihələrinin və sahibkarlıq fəaliyyətlərinin həyata keçirilməsinə təşkilati və metodiki dəstək göstərir;

IV. ASSOSİASİYANIN ÜZVLÜYÜNƏ QƏBUL QAYDALARI

4.1. Assosiasiyaya üzvlük bu Əsasnaməyə uyğun olaraq şəxsi ərizə əsasında, könüllü qaydada həyata keçirilir və üzvlük məsələsinə Ümumi Yığıncağın növbəti iclasında baxılır.

4.2. Məzunların universiteti bitirdikləri tarixdən, əldə etdikləri ali təhsil səviyyəsindən və vətəndaşlığından asılı olmayaraq, Assosiasiyaya üzv olmaq hüququ vardır.

4.3. Assosiasiyada "Fəxri üzv" statusu müəyyən edilir. Universitet məzunları sırasında ölkənin ictimai, iqtisadi, elmi, mədəni və digər sahələrin inkişafına mühüm töhfələr vermiş şəxslər İdarə Heyətinin təşəbbüsü və həmin şəxslərin razılığı əsasında Assosiasiyanın fəxri üzvü seçilə bilərlər. ADMİU-nun rektoru tutduğu vəzifəyə əsasən Assosiasiyanın fəxri üzvü hesab olunur.

V. ASSOSİASİYA ÜZVÜNÜN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Üzvlərin hüquqları:

5.1.1. Assosiasiyanın fəaliyyət göstərdiyi məkanlardan və mövcud imkanlardan, o cümlədən kitabxana resurslarından və xidmətlərindən müəyyən edilmiş iş rejiminə uyğun olaraq istifadə etmək;

5.1.2. Assosiasiyanın fəaliyyəti, qəbul etdiyi qərarlar, həyata keçirilməsi planlaşdırılan layihə və tədbirlər barədə müvafiq məlumatlar əldə etmək;

5.1.3. Assosiasiyanın fəaliyyətinin təkmilləşdirilməsi, yeni təşəbbüslərin həyata keçirilməsi və digər cari və strateji məsələlərlə bağlı rəy, irad və təkliflərini təqdim etmək;

5.1.4. Assosiasiyanın Sədri vəzifəsinə və İdarə heyətinə namizədliyini irəli sürmək, sədr seçkilərində iştirak etmək;

5.1.5. Peşəkar bilik və təcrübəsinə uyğun olaraq Assosiasiyanın təşkil etdiyi təlim, seminar və digər inkişaf proqramlarında təlimçi qismində iştirak etmək;

5.1.6. Zərurət yarandıqda Assosiasiyanın üzvlərinə təqdim etdiyi dəstək, xidmət və imkanlardan müəyyən edilmiş qaydada istifadə etmək.

5.2. Üzvlərin vəzifələri:

5.2.1. Assosiasiyanın fəaliyyətini tənzimləyən bu Əsasnamənin müddəalarına və müəyyən edilmiş daxili qaydalara əməl etmək;

5.2.2. Universitetin nüfuzunun, müsbət ictimai imicinin və üzvlər arasında formalaşmış etimad mühitinin qorunmasına məsuliyyətlə yanaşmaq;

5.2.3. Fəaliyyət planı çərçivəsində təşkil edilən tədbirlərdə, Ümumi Yığıncaqlarda və digər işgüzar görüşlərdə iştirak etmək;

5.2.4. Assosiasiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrin səmərəli şəkildə həyata keçirilməsinə və təşkilati işlərin icrasına dəstək göstərmək;

5.2.5. Məzunlarla əlaqələrin qurulmasına, möhkəmləndirilməsinə və davamlılığına, onların Assosiasiyanın fəaliyyətinə cəlb edilməsinə və universitet məzunları arasında qarşılıqlı əməkdaşlıq şəbəkəsinin genişləndirilməsinə töhfə vermək.

VI. ASSOSİASİYANIN İDARƏ OLUNMASI

6.1. Assosiasiyanın ali idarəetmə orqanı il ərzində bir dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır. Ümumi Yığıncaqlar arasındakı dövrdə Assosiasiyanın cari fəaliyyətinə nəzarəti İdarə Heyəti həyata keçirir. İdarə Heyətinə Assosiasiyanın Sədri rəhbərlik edir.

6.2. Ümumi Yığıncağın növbədənkənar iclasları İdarə Heyətinin qərarı ilə Assosiasiya üzvlərinin üçdə ikisinin (⅔) təşəbbüsü və ya rektorun təklifi əsasında çağırıla bilər. Ümumi Yığıncaq üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur. Ümumi Yığıncağın iclasları protokolla rəsmiləşdirilir. İdarə Heyətinin iclasları isə, ən azı, iki ayda bir dəfə keçirilir.

6.3. Ümumi Yığıncaqda qərarlar, bu Əsasnamədə digər hallar istisna olmaqla, iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

6.4. Ümumi Yığıncağın iclasına Assosiasiyanın Sədri sədrlik edir. Sədrin iclasda iştirakının mümkün olmadığı halda, iclasın idarə olunması İdarə Heyətinin üzvlərindən birinə və ya Ümumi Yığıncağın qərarı ilə müəyyən edilən digər üzvə həvalə edilir.

6.5. Ümumi Yığıncağın səlahiyyətlərinə aşağıdakılar daxildir:

6.5.1. Assosiasiyanın Əsasnaməsini qəbul etmək, təsdiq olunması üçün universitetin rektoruna və Elmi şuraya təqdim etmək, zərurət yarandıqda ona əlavə və dəyişikliklər barədə təklif vermək;
6.5.2. İdarə Heyətinin üzvlərini, İdarə Heyətinin Sədrini və Təftiş Komissiyasının üzvlərini seçmək;
6.5.3. Assosiasiyanın illik Fəaliyyət planını müzakirə etmək və təsdiq üçün Elmi şuraya təqdim etmək;
6.5.4. Assosiasiyanın fəaliyyətinin təşkili və idarə olunması ilə bağlı sənədləri təsdiq etmək;
6.5.5. Assosiasiyanın əsas fəaliyyət istiqamətlərini və inkişaf prioritetlərini müəyyənləşdirmək;
6.5.6. Bu Əsasnamə ilə Ümumi Yığıncağın səlahiyyətinə aid edilmiş digər məsələlərə baxmaq.
6.6. Assosiasiyanın İdarə Heyəti onun fəaliyyətinə cari rəhbərliyi və ümumi koordinasiyanı həyata keçirən kollegial idarəetmə orqanıdır. İdarə Heyəti 7 nəfərdən ibarət olmaqla Ümumi Yığıncaq tərəfindən iki il müddətinə seçilir.
6.7. İdarə Heyətinin Sədri Assosiasiyanın fəaliyyətinin təşkilinə və əlaqələndirilməsinə rəhbərlik edir. Ümumi Yığıncağın və İdarə Heyətinin qərarlarının icrasını təmin edir, habelə Assosiasiyanı universitet, dövlət qurumları, ictimai təşkilatlar və digər tərəfdaşlarla münasibətlərdə təmsil edir.
6.8. Eyni şəxs Sədr vəzifəsinə 2 dəfədən artıq seçilə bilməz.

VII. YEKUN MÜDDƏALAR

7.1. Assosiasiyanın fəaliyyətinə Ümumi Yığıncağın və ya Universitet Elmi şurasının müvafiq qərarı əsasında xitam verilə bilər.
7.2. Assosiasiyanın ləğvi barədə qərar Ümumi Yığıncaqda və ya Elmi şurada iştirak edən üzvlərin, ən azı, üçdə iki hissəsinin lehinə səs verdiyi halda qəbul edilmiş hesab olunur.
7.3. Assosiasiya fəaliyyətinin nəticələri, həyata keçirilmiş tədbirlər və qarşıya qoyulmuş məqsədlərin icra vəziyyəti barədə hər il Universitet Elmi şurasına hesabat təqdim edir.